

# EVƏ ÖZÜM YOX, CƏNAZƏM QAYIDACAQ...




*Əzizim, balabanı,*
*Asta çal balabanı.*
*Hamının balası gəldi,*
*Bəs mənim balam hanı?..*

Cavid sözünün mənası fars dilindən tərcümədə baqi, daimi, əbədi deməkdir. Əsgər Cabarzadə Cavid Qorxmaz oğlu da şəhidlik zirvəsinə ucalan əbədi qəhrəmanlarımızdan biridir. Ruhumuzun yaddaşında daima bir yüksək Cavid dağı, ürəyimizin dərinliyində bir dərin Cavid dağı olacaq ki, birinci dağ bizə fəxarət, ikincisi isə ağrı verəcək...

Cabarzadə Cavid Qorxmaz oğlu Suraxanı rayonu Bülbülə qəsəbəsində anadan olub. 2004–2008-ci illərdə Qubadlı rayon Qaralar kənd orta məktəbində, 2008–2014-cü illərdə isə Bakı şəhəri 316 saylı orta məktəbdə təhsil alıb.

Məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası nəzdindəki Atıcılıq mərkəzində idmanın qədim oxatma növüylə məşğul olub. Bir çox yarışmalarda aktiv iştirak edib, yüksək nailiyyətlər qazanıb. 2015-ci ilin oktyabr ayından etibarən hərbi xidmətə yollanıb. Atıcılıq üzrə fəallığı nəzərə alınaraq snayper-kəşfiyyatçı kimi hərbi xidmətini davam etdirib.

Ürəyi daim vətən eşqi ilə yanan Cavid Cabarzadə 2016-cı ildə Lələtəpə zəfəri ilə tariximizə yazılan şanlı Aprel döyüşlərində də iştirak edib. Orada Şükür Həmidovun batalyonunda da xüsusi şücaəti və qəhrəmanlığı ilə seçilib, daim özünü ön cəhbəyə atmaqdan çəkinməyib.

Şəhidimizin anası Cabarova Almaz deyir ki, Cavid balacalıqdan dəcəl, şən və eyni zamanda da narahat uşaq idi. Kiçik yaşlarındakı bu narahatlığı yaşı böyüdükcə böyüyüb vətəndən ötrü daimi narahatlığa çevrilib: "Aprel döyüşlərindən sonra xüsusən bir yerdə dayana bilmirdi. Elə hey deyirdi ki, nəyin bahasına olursa-olsun, torpaqlarımızı düşmən tapdağından xilas etməliyik. Vətənimiz azad nəfəs almalıdır".

27 sentyabr 2020-ci ildə başlayan Vətən müharbəsi onu da ürəyinin dərin qatlarında narahat edirdi. Bu daimi narahatlıq və doğma el-obasını işğalçılardan, separatçı erməni rejimindən azad etmək, torpağına azadlıq vermək istəyi onu Milli Orduya könüllü yazılmağa vadar etdi.

Atası Cabarov Qorxmaz deyir ki, həmin ərəfədə ehtiyatsızlıq ucbatından ayaq barmaqları sınmışdı, gipsdə idi: "Həkimə gedib hələ vaxtı



çatmamış ayağından gipsi açdırıb ki, yaxşıyam. Amma, əslində, tam sağalmamışdı. Dedim, oğul, qoy ayağın sağalsın, sonra get. Razılaşmadı. Bildim ki, daha ona söz deməyin xeyri yoxdur, onsuz da gedəcək. O elə uşaq idi ki, ölkəsində müharibə gedə-gedə evdə otura bilməzdi. Qeyrəti bunu qəbul etməzdi. Daha heç bir sözə ehtiyac qalmadığından Cavidi yola saldıq".

Sentyabrın 29-da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xətai İdarəsinin Suraxanı rayon bölməsindən Nasosnuda (Hacı Zeynalabdin qəsəbəsi) yerləşən 888 №-li hissəyə yollanaraq hərbi təlimlərə qatılıb. Cabarzadə Cavid qəhrəmancasına döyüşüb, bir sıra kəndlərin və yaşayış məntəqələrinin alınmasında yaxından iştirak edib. O, peşəkar snayper olduğundan düşmən mövqelərini dəqiqliklə atəşə tutub, qarşı tərəf hərbi texnika, həm də canlı qüvvə sarıdan böyük itkilərlə üzləşib. Bunun sayəsində ordumuz döyüşlərdən daha az itkiylə çıxıb. Onun qorxmadan, çəkinmədən meydana atılması digər döyüşçülərdə də ruh yüksəkliyi yaradıb, qələbəyə inamla irəliləməyə sövq edib.

Döyüş yoldaşları danışır ki, Cavid yaşca hamımızdan kiçik olmasına baxmayaraq, ata kimi qayğımıza qalırdı. Kim acdı, kim susuzdu, kimin harası ağrıyır, kimin nə dərdi var – hamıyla maraqlanırdı, hamıya nəsə bir köməklik göstərməyə çalışırdı. Uşaqlardan birinin gözü zəif görürdü, gecə qaranlıqda meşəylə getdikləri zaman onu ayağının altına işıq tuturdu ki, yıxılmasın. İmkan düşən kimi orda-burda azıb qalmış mal-qaradan qovub gətirirdi. Köməkləşib kəsirdik. Elə bir balaca dincimizi almağa oturanda bir də baxırdıq ki, Cavid nəsə bişirir bizim üçün. Özü də bunu o qədər böyük həvəs və zövqlə edirdi ki...

Döyüş yoldaşı Azər: "Cavid haqqında danışmaq çətindir. Həm də xoşdur. İnanmaq olmur yoxluğuna. O qədər saf, təmiz, mərd oğlan idi. Heç nədən qorxmurdu, nə olsa, elə özünü qabağa atırdı, heç kimə imkan vermirdi. Çalışırdı ağır işlərin altına özü girsin. Ümumiyyətlə, kiminsə nəyəsə ehtiyacı olanda birinci Cavid köməyə gəlirdi. Ondan başqa onu orda "Elektrik Cavid" kimi tanıyırmışlar. Bir dəfə gəlib bizim aramızda elektrik Cavidi axtardılar. Hamı təəccübləndi ki, Cavidimiz var, amma elektrik deyil. Sən demə, maşınları xarab olanda Cavid düzəldibmiş. İndi də hansısa maşın xarab olub, köməyə çağırırmışlar onu. O eləydi. Mütləq hamıya əlini uzadırdı".

Anası Almaz xanım Cavidin şəhadətə yüksəlməsindən də danışdı: "Bir həftə "Nasosnu"da təlim keçəndən sonra Cavidgil Füzuliyə getdilər. Füzuli rayonu alınandan sonra Cəbrayıl, Qubadlı, Laçın uğrundakı döyüşlərdə aktiv iştirak edib. Şəhid olmamışdan bir gün əvvəl – oktyabrın 23-də evə, bütün dost-tanışlarına, qohumlara zəng vurub halallaşdı. Mənə dedi ki, yuxuda görmüşəm, şəhid olmuşam, evə özüm yox, cənazəm gəlir. Ağladım, çox pis oldum. Amma ona heç nə bildirmədim. Əksinə, ruhlandımraq üçün dedim ki, Cavid, yuxular tərsinə yozulur. Demək, çox yaşayacaqsan, sənə heç nə olmayacaq. Evimizə sağ-salamat dönəcəksən. Şəhid olduğu gün – sentyabrın 24-də isə səhər-səhər bircə xalası Xatirəylə danışıb, sağollaşıb. Onunla da halallaşanda Xatirə deyib ki, Cavid belə şeylər danışma, sən qayıdacaqsan. Bu, onun sonuncu zəngi olub.

Əsgər yoldaşları danışır ki, həmin gün çox ağır döyüşə girəcəklərini deyiblər. Və tağımda olan 80 nəfərdən yaxınlarından kiminsə telefon nömrəsini istəyiblər. Hamı da ya anasının, ya atasının nömrəsini verib. Cavid yaxınlaşıb gülə-gülə deyib ki, mən bu döyüşdə şəhid olacam, nömrə də vermirəm. Anama heç nə deməyin, ürəyi dözməz. Komandir nə qədər israr etsə də, bircə Cavid nömrə verməyib”.

Atası Qorxmaz bəy: "Oktyabrın 24-də yaralandığını bildik. Noyabrın 4-nə kimi düz 12

gün gecəmiz, gündüzümüz olmadı, onu bütün rayonların xəstəxanalarında, hospitallarında axtardıq. Həmin 12 gündə ümidimiz kəsilmədi. Bir saman çöpü boyda həmin o ümiddən yapışıb hər yeri gəzdik. Sonunda elə Füzuli hospitalında artıq yaralı yox, şəhid kimi tapdıq".

Döyüş yoldaşı: "Oktyabrın 24-də səhər yeməyimizi yedik, hamı ailəsiylə danışdı. Cavid xalasıyla danışdı. Snayperlə vurmağa başladılar. Sonra minaatanla atəşə tutdular. Hərə özünü bir tərəfə atdı. Orda bir daldalanacaq yer də yox idi. Uzun illər həmin ərazilərdə olduqlarından ermənilər bütün koordinatları gözəl bilirdilər. Ona görə də dəqiq nöqtələrə vururdular. Dalbadal, dayanmadan, sanki şahmat lövhəsi damaları boyunca vurur, səngəri dağıtmağa çalışırdılar. Hər yeri toz-duman almışdı. Dəhşətli bir mənzərə vardı. Minaatanın səsindən qulaq batırdı. Elə bil başına qazan qoymusan, üstündən də qaşıqla vururlar. Həmin vaxt Cavid ayağından ağır yaralandı. Düşmən mərmisinin qəlpəsi ayağının ətini dağıtmışdı, bircə sümüyü görünürdü. Bizə kömək gəldi, yaralıları çıxarmağa başladıq. Amma atəş qətiyyən səngimirdi, elə dayanmadan vururdular. Cavid həddindən artıq qan itirmişdi. Ayağına "jqut", qayış bağladıq. Xərəklər yaralılarla dolu idi. Cavidi də xərəyə qoyub birtəhər ordan çıxartdıq. O, demək olar ki, artıq özündə deyildi. 45 dəqiqə "Ford" maşınlarına qədər, ordan da Cəbrayıla apardıq. Yol boyu onu ayıltmağa çalışdıq. Sərhəd hospitalına çatdıq, oksigen verdilər, iynə vurdular. Hamımız ağlayırdıq, narahat idik ki, Cavid bircə ayılsın. Həkim çıxıb bizə artıq Cavidin ayıldığını, ölüm təhlükəsi olmadığını dedi. Və biz döyüşə qayıtdıq. Sonradan eşidib-bildik ki, Cavid, sən demə, elə ordaca şəhid olub. Sadəcə, ruhdan düşməmək üçün bunu bizdən gizlədiblər".

Cavid maşın arzusunda idi. Atası müharibəyə gedəndə söz verib ki, gələn kimi maşın da alacaq, üstəlik, evləndirəcək də onu. Amma təəssüf... heç biri olmadı...

Döyüş yoldaşı: "Cavid anasını çox istəyirdi, elə hey anasından danışırdı. Əvvəl-əvvəl elə bilirdik ki, anası-atası ayrılıb, Cavid anasının yanında böyüyüb deyə, bu qədər ona bağlıdır. Sonradan bildik ki, atası da var. Amma o nədənsə daha çox anasına bağlı idi. Orda nəsə xoşuna gələn bir şey görsə, deyirdi, bunu anam üçün aparacam, ona hədiyyə edəcəm. Bir də tez-tez deyirdi ki, şəhid olsam, anama deməyin. Yaralanmamışdan öncə səhər yeməyi vaxtı da kefi yaxşı idi, səngərdə mahnı oxuyurdu..."

Cavid Zəngilan, Cəbrayıl, Füzuli, həmçinin də Laçın uğrunda gedən döyüşlərdə ön cəbhədə olub, oktyabrın 24-də Laçın dəhlizi yaxınlığında qızğın döyüşlərdə düşmən tərəfindən açılan intensiv atəş nəticəsində ayağından ağır yaralanıb, yerindəcə böyük qan itkisindən dünyasını dəyişərək müqəddəs şəhidlik zirvəsinə ucalıb. İkinci Fəxri xiyabanda dəfn olunub. Şəhadətə yüksəldikdən sonra Ali Baş Komandanımız tərəfindən "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub. Allahdan Cabarzadə Cavidə rəhmət, ailəsinə, yaxınlarına səbir diləyirəm.

***Anasının dilindən Cavidə***

Nə vaxtdır ki, yoxsan...
Yoxluğuna "yox” deyirəm, inanmıram.
Hər səhər xörək asıram,
Hər axşam süfrə salıram,
Adına da pay qoyuram,
Gəlmirsən...
Bir aydır həyətimizdə
Ağ sülh göyərçinlərinə
Dən qoyuram, su qoyuram –
Ehsan kimi...
Qapımızda dalğalanan üçrəngli bayrağına
Boylanıram...
Küçədən adamlar keçir,
"Şəhid qapısı”dı deyir.
Qəhər, qürur – heç bilmirəm
Hansı daha üstə keçir...
Gözlərimi bərk yumuram,
Elə hey xəyal qururam,
Ümid üstə ümid yığıb
Ümidimdən ev qururam,
Ümidimlə ovunuram.
Mən də inadkar adamam,
Yoxluğuna "yox” deyirəm, inanmıram...

**Xanım AYDIN**